**UOT 32; UOT 327**

**MƏŞDİ İSMAYILOV**
*Bakı Dövlət Universitetinin müəllimi*
**m14ismayilov@gmail.com**
ORCID iD: 0000-0003-4039-5433

# SİVİLİZASİYA ANLAYIŞI: DİSKURSUN SİYASİ, PSİXOLOJİ VƏ FƏLSƏFİ ASPEKTLƏRİ

DOI: https://doi.org/10.36719/2708-065X/106/178-182

*Sivilizasiya maraqlı və bir o qədər də mübahisəli mövzudur. Bu mövzu, sadəcə olaraq, həvəsli araşdırma və tərəfsiz düşüncə gözləyən tarixi bir mövzu deyildir. Sivilizasiya, BMT-nin 2001-ci il Bəyannaməsi ilə Sivilizasiya haqqında diskussiya" ili kimi qlobal səviyyədə qəbul edilmiş aktual bir məsələdir. Bir çox araşdırmaçılara görə, insan nailiyyətlərinin mahiyyəti müasir tərəqqinin son nəticəsidir. Digərlərinə görə, həyatın mexanikləşdirilməsini dəstəkləyən və ənənəvi inanclara qarşı gələn xarici təhlükədir. Son on illiklərdə, dünya tarixində bir-birinin ardınca çox mühüm dəyişikliklərin yaşanması, iki böyük dünya müharibəsini özündə birləşdirən beynəlxalq nizamın "yeni dünya nizamı" ilə əvəzlənməsi tendensiyası, sivilizasiya anlayışının qərbdə və dünyada necə qəbul edilməsini və eyni zamanda bundan sonra nə olacaq sualını doğurdu. Əsrin əvvəllərində Osmanlı dövlətinin ləğvi ilə şərq məsələsini həll edən Qərb, İkinci Dünya Müharibəsinin sonunda Berlində qısamüddətli "irrasional" faşist-nasist totalitarizmini dar ağacına sürüklədi və nəhayət, "hiperrasional" marksist-leninist totalitarizmi müharibəsiz məğlub etdi. Qaydaların və sərhədlərin böyük ölçüdə müəyyən olduğu ikiqütblü dünya nizamından, birqütblü və ya çoxqütblü olması hələ də qeyri-müəyyənlik təşkil edən yeni dünya düzəninə keçid baş verdi. Liberalizmin hökmranlığını köhnə vərdişlərin kölgəsi üzərində ideoloji qələbə kimi izah etməklə yeni nizamı müəyyən etməyə ilk cəhd edildi. Ancaq bu izahın yetərli olmadığı görüləndə, yerini mədəni və sivilizasiya fərqlərinə əsaslanan izah aldı.*

*Açar sözlər:* Sivilizasiya anlayışı, siyasi diskurs, fəlsəfi aspekt, psixoloji nəticə.

***Giriş.*** Frensis Fukuyamanın "Tarixin Sonu?" məqaləsində tarixin liberal kapitalizmin qələbəsi ilə başa çatacağı təhlil edilir. Fukuyama məqaləsini Hegelin rus-fransız davamçısı Aleksandr Kojovenin şərhləri ilə Hegelin idealist dialektikasına əsaslanan fəlsəfəyə əsaslandırıb. Hegel Jena döyüşünün nəticələrinə baxaraq deyərdi ki, Fransa İnqilabının idealları gerçəkləşdi və tarix bitdi. Kojove bunu İkinci Dünya Müharibəsindən sonra bir daha elan edəcəkdi. Fukuyamanın məqaləsi əvvəlcə diqqəti cəlb etsə də, çoxdan məlum olan düşüncə tərzinin yeni versiyası idi. Mövcud nizama əbədilik aid edilərək, onun qanuniləşdirilməsinə xidmət edən bu yanaşmanın tarixi keçmişində Aristotel üçün Ellin Sivilizasiyası, Siseron üçün Roma İmperiyası, Qəzali üçün İslam İmperiyası, orta əsrlər Avropasında xristian filosoflar üçün Vatikan mərkəzli xristianlıq, Viktoriya İngiltərəsindəki Britaniya İmperiyası Tarixin Sonunu ifadə edirdi.

Fukuyamanın məqaləsindən sonra politoloq Samuel Hantinqton "Sivilizasiyaların toqquşması" məqaləsini, Soyuq Müharibədən sonra müşahidə olunan qarışıqlığı izah etməyə çalışan bir paradiqma təklifi kimi görürdü. Məşhur filosof Tomas Kuhn tərəfindən irəli sürülən "paradiqma" anlayışı elmlərin tərəqqisi zamanı edilən izahatların və ya nəzəriyyələrin mənalı, ardıcıl daxili bütövlüyünə aiddir. Buna görə də, hər bir paradiqma bir izahat çərçivəsidir və təhlil edilənlər bu çərçivədə mənalı və izahedici ola bilər. Çərçivənin hadisələri izah etmək gücünün yetərli olmadığı nöqtədə yeni çərçivələr irəli sürülür və qəbul olunarsa, yeni paradiqma formalaşır [5, s.130].

Ona görə də, tarixin sonu tezisləri məntiqi və obyektiv deyil, ideoloji və subyektiv fərziyyələrə əsaslanır, reallığı müəyyən sivilizasiya dəyərləri və mədəni sistem pəncərəsindən şərh etmək deməkdir. İctimai elmlər sahəsində görülən bir çox modellərin mənbəyi Qərb-Şərq ayrı-seçkiliyinə deyil, Qərbin Şərqi formalaşdırmaq istəyinə əsaslanır.

***Sivilizasiya anlayışının mənşəyi və əhəmiyyəti.*** Sivilizasiya sözü Qərb dillərində "civilisation" olub, latınca "şəhər" mənasını verən "civilis" sözündən götürülmüşdür. Qərb düşüncə sistemində bu

mənaya cavab vermək üçün Osmanlı türkcəsində “medeniyet” sözü istifadə edilmişdir. Ərəbcə bu məna “hadare” sözü ilə qarşılanır. Uyğur dilindən "müəyyən qanunlara əməl edərək şəhərdə yaşayan insanlar" mənasında yaranan "mədəniyyət" sözü də, bugünkü türkcədə sivilizasiyanın qarşılığı kimi qəbul edilsə də, sivilizasiya daha geniş məna kəsb edir. Sivilizasiya sözünü Mesopotamiya, Roma və Azteklərdən tutmuş, müasir Qərb cəmiyyətinə qədər müxtəlif cəmiyyətlərə aid etmək olar.

XX əsrin əvvəllərində sivilizasiya sözü həm cəm, həm də tək mənada işlənməyə başladı. Məsələn, Roma və Yunan Sivilizasiyası kimi anlayışlar çoxluğu ifadə edir. Lakin, bu ifadələr Qərbin yanaşmasında Yunan və Roma sivilizasiyalarını özlərinin ilk mərhələsi və qidalandığı mənbə olaraq gördüyü üçün, hələ də avrosentrik hesab olunur.

Müsəlman cəmiyyətlərində isə, sivilizasiya anlayışı haqqında fikirlərdə problemlər yaranmışdır. Müsəlmanlar əsrlər boyu, Qərb cəmiyyətlərinin həyat tərzindən uzaq, onların dəyər sistemindən fərqli, unikal həyat tərzinə malik olmuşdurlar. XX əsrə qədər, hətta özlərini qərbdən üstün hesab edirdilər. Unudulmamalıdır ki, İslam sivilizasiyasının zirvəsində olduğu dövrdə Qərb cəmiyyətləri inkvizisiyanın vəhşiliklərindən yazırdılar. Kilsənin hökmranlığı və onların həyat tərzi kifayət qədər primitiv və kobud idi. Hətta onların əyləncələri də, qladiator döyüşləri kimi qeyri-insani səhnələrdən təşkil olunurdu. Sonralar rollar dəyişdi, Qərb elmə diqqət yetirərək inkişaf edərkən, İslam dünyası öz daxili problemlərini aşa bilmədi və rəqabətdən kənarda qalaraq üstünlüyünü itirdi.

Müasir dünyamızda “sivilizasiya” anlayışı saysız-hesabsız mühitdə istifadə olunur. Lakin, insan təxəyyülünün həddi-hüdudu olmadığı üçün, mütəfəkkirlər sivilizasiya anlayışı haqqında məfhumları fərqli qəbul etmiş və ona uyğun nəzəriyyələr yaratmışlar. Sivilizasiya haqqında ən çox qəbul edilən iki əsas mənadan birincisi, hər hansı bir ölkə və cəmiyyətin sənət, din, elm, ictimai-siyasi təşkilatlanma baxımından yüksək inkişaf səviyyəsinə çatmasıdır. İkinci məna, müəyyən zaman və məkanda yaşayan, yüksək ictimai təşkilatlanma səviyyəsinə çatmış cəmiyyətdir.

Uill Durant sivilizasiyaya mədəni yaradıcılığı stimullaşdıran sosial nizam kimi şərh verir. Bu nizam insanın maraq və yaradıcılıq azadlığından, instinkt əsasında həyatın mənasını və bəzəklərini dərk etmək səyindən başlayır. Durantın şərhinə əsasən, sivilizasiya dörd ünsürdən ibarətdir: iqtisadi şərait, siyasi nizam, əxlaqi ənənələr, biliyə və təsviri sənətə can atmaq [8, s.43].

Osvald Şpenqler və Arnold Toynbi görə, sivilizasiyalar müəyyən bir qrafikə uyğun olaraq doğulur, inkişaf edir, tənəzzülə uğrayır və dağılır. Əlavə olaraq, Arnold Toynbi tarixə dövri baxışı tarixə mütərəqqi baxışla uzlaşdırmağa çalışır. Onun gəldiyi nəticə budur ki, sivilizasiyaların yüksəliş və süqut xətləri arasında davamlı inkişaf xətti var və daha mənalı məqsədləri olan başqa yollara imkan verir. Reqressiyanın yaratdığı ağrı vasitəsilə əldə edilən təcrübə, plan çərçivəsində tərəqqinin ən yaxşı yolu ola bilər [4, s.7].

Bu gün bəhs etdiyimiz sivilizasiyalar hələ də öz cəmiyyətləri və qismən təşkilatları ilə yaşayan və sosiologiyaya da aid olan müasir sivilizasiyalardır. Hantinqtona görə, sivilizasiya insanı digər növlərdən fərqləndirən cəhətlərdən başqa, onların malik olduğu mədəni kimliyin ən geniş səviyyəsidir. Dünya əsasən yeddi və ya səkkiz böyük sivilizasiyanın qarşılıqlı təsiri ilə formalaşacaq. Bunlara Qərb, Konfutsi, Yapon, İslam, Hindistan, Slavyan-Pravoslav, Latın Amerikası və bəlkə də Afrika sivilizasiyaları daxildir. Ən mühüm mübarizələr bu sivilizasiyaları bir-birindən ayıran mədəni qırılma xətləri boyunca baş verəcək.

Hazırda Sivilizasiya anlayışı ilə, Qərb dünyası sahib olmaqdan qürur duyduğu texnologiyaya, elmi biliklərə, son iki əsrdə yaratdığı qurum və dəyərlərə və buna bənzər şeylərə istinad edir. Qərblilərin fikrincə, müsəlman cəmiyyətlərində sivilizasiya uğuru sayıla biləcək ünsürlər mahiyyətcə yunan düşüncəsindən, hüquq və dövlət idarəçiliyinə dair prinsiplər isə Roma, Bizans və qismən də Fars sivilizasiyasından köçürülmədir. Bu anlayış, İslam sivilizasiyasının töhfələrini gözardı etməkdən başqa bir şey ifadə etmir. Təbii ki, sivilizasiyalar arasında qarşılıqlı əlaqə var. Halbuki bu, təkcə İslam sivilizasiyası üçün deyil, hər bir sivilizasiya üçün keçərli olan bir məsələdir. Eyni qiymətləndirmə, özlərinə məxsus olduğunu iddia etdikləri Qərb sivilizasiyası üçün də keçərlidir. İbn Sinanın tibb sahəsində əldə etdiyi nailiyyətlər onlarla insan tərəfindən qəbul edilmiş və ən məşhur, nüfuzlu universitetlərdə kurs kimi tədris edilmişdir.

Türk mütəfəkkirlərindən olan Şəmsəddin Sami sivilizasiyanın tək olması, tarixin gedişatında əl dəyişdirməsi və bu mənada İslam sivilizasiyasının Yunan və Roma sivilizasiyaları ilə müasir sivilizasiya arasında vasitəçilik etməsi iddiasını müəyyən qədər qəbul edir. Bu anlayışda sivilizasiya müxtəlif dövrlərdə hər kəsin töhfəsi ilə formalaşır və inkişaf edir. Bu anlayış eyni anda birdən çox sivilizasiyanın mövcud ola biləcəyi fikrinə ziddir. Bu anlayışa görə hər dövrdə bir sivilizasiya vardır.

Türkçülük axınının ən böyük nümayəndəsi kimi tanınan Ziya Göyalp ümumbəşəri sivilizasiya ilə milli mədəniyyəti fərqləndirir. Göyalp, bunlardan birincisini qəbul etməyin zəruri olduğunu, ikincisini isə başqa millətlərdən qəbul etməyin zərərli olduğunu düşünür. O, "Türkləşmək, İslamlaşmaq, Müasirləşmək" adlı əsərində İslam cəmiyyəti ilə Qərb sivilizasiyası arasındakı əlaqəni reallaşa bilən çərçivədə yerləşdirməyə çalışmışdır.

Xarici aləmdə əks olunan sivilizasiyaların formalarının psixoloji və sosioloji fonunu, şəxsiyyət və özünüdərk arasındakı tərif fərqini ortaya qoymadan müəyyən etmək çətindir. Bu iki anlayış şüurun iki fərqli səviyyəsini əks etdirir. Şəxsiyyət sosial, iqtisadi və siyasi hakimiyyət tərəfindən müəyyən edilə bilən keyfiyyətə malik olduğu halda, özünüdərkin başqa bir hakimiyyət tərəfindən müəyyən edilməsi və ya aradan qaldırılması qeyri-mümkündür. Məsələni bir misalla aydınlaşdırmaq üçün, Yuqoslaviya dövləti Serb, Bosniya, Alban və Sloveniya vətəndaşlarına ortaq kimlik təyin etdiyində, zaman keçdikcə bu icmaların yaşatdıqları sivilizasiya mənsubiyyətlərinə əsaslanaraq özünü dərk etmələri əsl hərəkətverici qüvvə kimi fəaliyyətə başladı və qısa müddətdə müəyyən edilmiş şəxsiyyətləri aşan siyasi fenomenə çevrildi.

Köçəri rus tayfalarının pravoslavlığı qəbul edərək Şərqi Roma mədəniyyətinə uyğunlaşması idealı, rus kimliyini formalaşdıran əsas istinad ölçüsü oldu. Türklərin İslamlaşmadan sonra Səlcuqlu təcrübəsi ilə əldə etdikləri Osmanlı sivilizasiyası da analoji özünüdərketmə transformasiyasının və müasir dövrün nəticəsidir.

***Nəticə.*** Bu təhlillər nəticəsində sivilizasiyanın tək bir anlayış olmadığı, eyni zamanda birdən çox sivilizasiyanın ola biləcəyi və onlardan biri üstünlük təşkil etsə də, digərlərinin insanların qarşısında alternativ həyat tərzi formasında durduğu fikri əhəmiyyət qazanır. Eyni zamanda sivilizasiyaların tamamilə yox olmaq əvəzinə zaman-zaman yüksəliş və eniş yaşaya biləcəyi, buna görə də Qərb və digər sivilizasiyaların, xüsusən də İslam sivilizasiyasının yaşadıqları problemlərin öhdəsindən gələrək yenidən yüksəlmək imkanına malik olduğu qəbul edilmiş bir fikirdir. Sivilizasiyaların siyasi hökmranlığı dövrlərində müşahidə olunan durğunluq fəlsəfi axtarışların intensivliyini azaldır və sivilizasiya prototipinin mahiyyəti ilə deyil, ona verilən özünüdərk ölçülərinin nəticələri ilə məşğul olmağa başlamasına səbəb olur. Beləliklə, əldə edilən siyasi ağalıq hesabına asanlıqla təkrarlana bilən həyat tərzinin qorunub saxlanması məsələsi, ümumbəşəri məzmunlu ideaalların həyata keçirilməsindən üstün olmağa başlayır.

## ƏDƏBİYYAT

1. Aktürk, Şener. "Braudel'den Elias'a ve Huntington'a Medeniyet Kavramının Kullanımları", Doğu Batı, 41, Ankara 2018, s.147-177.
2. Bayar Bravo, I. "Tarihin Sonu, İlerleme ve Küreselleşme Üzerine Bir İnceleme'',C.Ü. Sosyal Bilimler Dergisi, Cilt: 29, No:2, 2005, s.125-138.
3. Bonnett, A. Makers of the West: National Identity and Occidentalism in the Work of Fukuzawa Yukichi and Ziya Gökalp. Scottish Geographical Journal, 118(3), 2002, s. 165-182.
4. Bruce Mazlish, Civilization and Its Contents, Stanford University Press, January 18, 2005, 206 s.
5. Mazrui, Ali A. Tarihin Sonu ve İslam, çev: K. Çayır, Aydın,M., Özensel, M., (edts), Francis Fukuyama v.d, Tarihin Sonu mu ? (125-147), Ankara,Vadi Yayınları.2002, s. 125-147.
6. Skirbekk, Gunnar & Gilje, Nils. "Felsefe Tarihi", (Akbaş, E.; Mutlu, Ş.: Çev), Kesit Yayınları, İstanbul 2011, s.98-100.
7. Yılmaz, M. Medeniyetler Çatışmasına Giriş, Yılmaz, M.(edt.), Samuel P. Huntington v.d, Medeniyetler Çatışması, (13-22), Ankara, Vadi Yayınları. 2002, 257 s.
8. Üregen, Abdülkerim. "Medeniyet Kavramı Etrafında Yeni Tartışmalar:'Medeniyetler Çatışması mı?'". Istanbul Journal of Sociological Studies 25 (Eylül 2011), 39-57 .

**МАШДИ ИСМАИЛОВ**
*преподаватель Бакинского государственного университета*

## КОНЦЕПТ ЦИВИЛИЗАЦИЯ: ПОЛИТИЧЕСКИЕ, ПСИХОЛОГИЧЕСКИЕ И ФИЛОСОФСКИЕ АСПЕКТЫ ДИСКУРСА

Цивилизация – интересная и противоречивая тема. Эта тема - не просто историческая тема, ожидающая восторженных исследований и беспристрастных размышлений. Цивилизация – актуальная проблема, признанная на мировом уровне Декларацией ООН 2001 года как «Год цивилизационной дискуссии». По мнению многих исследователей, суть человеческих достижений – это конечный результат современного прогресса. По мнению других, это внешняя угроза, поддерживающая механизацию жизни и противостоящая традиционным верованиям. В последние десять лет, переживая одну за другой очень важные перемены в мировой истории, тенденция замены международного порядка, включавшего две великие мировые войны, на «новый мировой порядок», поставила вопрос о том, как концепция цивилизации воспринимается на Западе и в мире, и в то же время, что будет дальше. Запад, решивший восточный вопрос путем упразднения Османского государства в начале века, повесил недолговечный «иррациональный» фашистско-нацистский тоталитаризм в Берлине в конце Второй мировой войны и окончательно победил «гиперрациональный» Марксистско-ленинский тоталитаризм без войны. Произошел переход от биполярного мирового порядка, где правила и границы в значительной степени определены, к новому мировому порядку, где однополярный или многополярный все еще остается неопределенным. Первая попытка была предпринята для определения нового порядка, объясняя доминирование либерализма идеологической победой над тенью старых привычек. Однако когда это объяснение оказалось недостаточным, его место заняло объяснение, основанное на культурных и цивилизационных различиях.

*Ключевые слова:* Концепция цивилизации, политический дискурс, философский аспект, психологический результат.

**MASHDI ISMAILOV**
*Lecturer at Baku State University*

## THE CONCEPT OF CIVILIZATION: POLITICAL, PSYCHOLOGICAL AND PHILOSOPHICAL ASPECTS OF DISCOURSE

Civilization is an interesting and controversial topic. It is not just a historical topic awaiting enthusiastic research and dispassionate reflection. Civilization is a pressing issue, recognized at the global level by the UN Declaration of 2001 as the “Year of Civilizational Discussion.” For many researchers, the essence of human achievement is the end result of modern progress. For others, it is an external threat that supports the mechanization of life and opposes traditional beliefs. In the last ten years, experiencing one after another very important changes in world history, the tendency to replace the international order that included two great world wars with a “new world order” has raised the question of how the concept of civilization is perceived in the West and in the world, and at the same time, what will happen next. The West, having solved the Eastern Question by abolishing the Ottoman state at the beginning of the century, hung the short-lived “irrational” fascist-Nazi totalitarianism in Berlin at the end of World War II and finally defeated the “hyper-rational” Marxist-Leninist totalitarianism without war. There was a transition from a bipolar world order, where the rules and boundaries were largely defined, to a new world order, where unipolarity or multipolarity still remained ambi-

guous. A first attempt was made to define the new order by explaining the dominance of liberalism as an ideological victory over the shadow of old habits. However, when this explanation proved insufficient, it was replaced by an explanation based on cultural and civilizational differences.

*Keywords:* Concept of civilization, political discourse, philosophical aspect, psychological result.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 01 oktyabr 2024-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 15 oktyabr 2024-cü il.*
*Rəyçilər: f.ü.f.d. Nazim İbadov, s.e.d. Adil Mirabdullayev.*